# Azərbaycan Dövlət İqtisad Universitetində

## Rektor BVF və DB-nin illik toplantısında iştirak edib

UNEC rektoru, professor Ədalət Muradov Vaşinqtonda keçirilən Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı (DB) Qrupunun illik toplantısında iştirak edib. Ə.Muradov toplantıya hər iki təşkilatın birgə dəvəti ilə qatılıb.

Xüsusi proqrama uyğun olaraq, Serbiya, Bosniya və Herseqovina, El-salvador, İordaniya, Anqola, Kot d`İvuar, Myanmar, İndoneziya, Kolumbiya və Azərbaycandan dəvət olunan akademik dairənin nümayəndələri BVF-nin icraçı direktoru K.Laqard (Christine Lagarde) və Dünya Bankı Qrupunun direktoru J.Kimin (Jim Yong Kim) iştirakı ilə bir sıra müzakirələrə qatılıblar.

Oktyabrın 7-də keçirilən BVF və DB-nin illik toplantısında Ümumdünya Ticarət Təşkilatının baş katibi R.Azevedo bildirib ki, qlobal iqtisadi artım tempinin azalması ilə bərabər, ticarətdə maneələr artıb, proteksionizm güclənib. Bununla yanaşı, inkişaf etmiş ölkələrdə iqtisadi artım qeyri-bərabər bölünüb. O bildirib ki, ilin sonuna qədər imzalanacağı gözlənilən Ticarətə Yardım Sazişi (Trade Facilitation Agreement) inkişafda olan bir sıra ölkələrin ticarət xərclərini 15 faizə qədər azaldacaq.

BVF-nin icraçı direktoru K.Laqard, BVF yaradıcılarından olan C.Keynsden (John Maynard Keynes) "bir çox hallarda çağırış yeni ideyaların inkişafından daha çox köhnə ideyalardan uzaqlaşmaqdan ibarətdir" sitatını misal gətirərək, əsas prioritet kimi "dəyişən BVF və dəyişən dünya", müasir texnologiyaların vacibliyindən danışıb. Rəqəmsal əsrə doğru inkişafı, inklüziv iqtisadi artımı təmin edən siyasəti və beynəlxalq əməkdaşlığı ön plana çəkib.

J.Kim Dünya Bankının əsas məqsədinin dünyada mütləq yoxsulluğun aradan qaldırılması olduğunu vurğulayaraq, inklüziv, dayanıqlı və daha yüksək artım tempinin təmin edilməsi üçün daha böyük əməkdaşlığın yaradılmasının vacibliyini qeyd edib. Eləcə də infrastruktur layihələrinin reallaşdırılmasının davam etdirilməsinin əhəmiyyətini bildirib.

Səfər çərçivəsində bir çox müzakirələrdə iştirak edən UNEC rektoru BVF-nin Azərbaycan üzrə missiya rəhbəri Məhəmməd Əl Qorçi ilə görüşüb. Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi islahatlar haqqında ətraflı məlumat verilib. M.Qorçi Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatları yüksək qiymətləndirib. Müzakirələr zamanı BVF-nin elektron kitabxanasına sərbəst çıxış imkanlarının yaradılması, BVF ilə UNEC-in birgə tədqiqatlar aparması, konfrans, seminar və "dəyirmi masa"ların təşkili təklif edilib.

## UNEC ilə ACCA arasında müqavilə imzalanıb



Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə ACCA (the Association of Chartered Certified Accountants - Sertifikatlı İctimai Mühasiblər Assosiasiyası) arasında müqavilə imzalanıb.

Sənədə görə, UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin mühasibat uçotu və audit ixtisasında təhsil alan tələbələrə F1-F4, maliyyə ixtisasının tələbələrinə isə F1-F3 dərəcələri üzrə azadolma təqdim ediləcək. Bununla bərabər, tələbələrə ACCA qeydiyyatı üzrə endirimlər də veriləcək. Beynəlxalq İqtisadiyyat Məktəbinin tələbələri ACCA qeydiyyatından onlar üçün ayrılmış xüsusi kodlarla keçəcəklər.

ACCA-nın Ukrayna, Belarus və Qafqaz ölkələri üzrə rəhbəri Zhanetta Onyshchuk və biznez əlaqələri üzrə menecer Dmitri Şkolnikovla görüşdə UNEC və ACCA arasında əməkdaşlığın perspektiv istiqamətləri müzakirə edilib. UNEC rektoru, professor Ədalət Muradovun təklifi ilə ACCA-nın UNEC müəllimlərinə treninq keçməsi, UNEC ilə ACCA tərəfindən akkreditasiya edilmiş universitetlər arasında akademik əlaqələrin yaradılması müzakirə edilib.

ACCA peşəkar mühasiblərin qlobal birliyidir. ACCA dünyanın istənilən yerində mühasibat uçotu, maliyyə və menecment sahələrində karyera qurmağa qadir və meyilli insanlar üçün biznes mühitinə müvafiq namizədlərin ilkin seçimi olan bir ixtisas dərəcəsidir.

## Magistratura pilləsində yeni standartların tətbiqinə başlanılıb

UNEC-də 2016/2017-ci tədris ilindən magistratura pilləsində yeni standartların tətbiqinə başlanılıb. UNEC-in magistratura pilləsində 15 ixtisas üzrə tədris Avropa Kredit Transfer Sisteminin (AKTS) tələblərinə və bu sistemə qoşulan ölkələrin təcrübəsinə əsaslanaraq aparılacaq.

Yeniliklərdən biri ondan ibarətdir ki, təhsil standartlarına uyğun keçirilən hər bir fənnin kreditlərinin sayı Avropa Kredit Transfer Sisteminə uyğun 6 AKTS olaraq müəyyənləşdirilib. Yeni standartlarla təhsil alan magistrlər dünyanın bir çox qabaqcıl universitetlərinə beynəlxalq təqaüd və mübadilə proqramları ilə müraciət edə biləcək və tədris olunan fənlərin uyğunlaşdırılmasında heç bir maneə ilə rastlaşmayacaq.

Tətbiq olunan yeni standartların əsas məqsədi tədqiqat yönümlü və elmi araşdırmalar apara bilən akademik kadr yetişdirməkdir. Bu məqsədlə təhsil proqramında nəzəri təlimə ayrılan həftə sayı 30-a endirilərək, magistr dissertasiyası və elmi tədqiqatlar üçün həftələr artırılır. Tələbə iki semestr - hər semestr 5 dərs olmaqla (bunlardan hər semestr 3 məcburi, 2 seçməli fənn) ümumilikdə 60 AKTS-lik tədris müddətini başa vurur.

3-cü semestrdə magistrlərə "Tədqiqatlar, kommunikasiya və innovasiya" fənni tədris edilir. Dərs zamanı magistr elmi rəhbər ilə birlikdə tədqiqatlar aparır, kommunikativlik bacarıqlarını, eyni zamanda tələbə qiymətləndirmə metodlarını və dərslərdə akademik kadr olaraq iştirakı aktiv şəkildə öyrənir, elmi rəhbərlə bərabər dərslərin tədrisində iştirak edir. 3-cü semestrin sonunda magistr dissertasiya işi ilə bağlı elmi rəhbərə hesabat verərək qiymətləndirilir.

4-cü semestrdə "Tədqiqat işinin aparılması" fənni tədris olunmaqla yanaşı, magistrlər elmi tədqiqat və elmi pedaqoji təcrübələrdə iştirak edir, dissertasiya işini hazırlayır. Fənnin tədrisinin ən əsas məqsədi magistrlərə elmi məqalə və məruzələrin hazırlanması, tədqiqat prosesinin aparılması, bu proses zamanı müasir proqram təminatı vasitələrindən və analiz metodlarından istifadənin öyrədilməsidir. Magistr dissertasiya işinin müdafiəsi ilə 120 AKTS-lik magistr təhsil proqramını tamamlayaraq məzun olur.

Magistr pilləsində akademik kadr, müasir, yüksək keyfiyyətli və beynəlxalq təcrübəli elmi tədqiqatçılar hazırlamaq üçün bütün ixtisaslar üzrə "Tədqiqat metodları" fənni məcburi dərs olaraq keçiləcək. Standartlara uyğun olaraq müəyyənləşdirilən "Tədqiqat metodları" və ixtisaslar üzrə müasir problemlər fənlərindən əlavə, digər fənlər "ali məktəb tərəfindən müəyyən edilən fənlər" blokuna daxil ediləcək. İxtisas və müvafiq ixtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər isə ali təhsil müəssisələri tərəfindən müəyyənləşdiriləcək.

Magistratura pilləsində məşğələ dərslərinin məsləhət saatları şəklində müzakirələrlə əvəz edilməsi, mühazirə və seminarların isə birləşdirilməsi nəzərdə tutulub.

**İctimaiyyətlə əlaqələr şöbəsi**